# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARINDA FƏALİYYƏT GÖSTƏRƏN REGİONAL ELMİ MƏRKƏZLƏR

**İradə Bayramova**
*Sənəd menecmenti kafedrasının müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru*
*irade8@mail.ru*

***Xülasə:*** *Azərbaycan Respublikasının regionlarında fəaliyyət göstərən Regional Elmi Mərkəzlər elmi və elmi-texniki tədqiqatların təşkilini müxtəlif elm, təhsil, istehsal, xidmət, və digər sahələrin kooperasiyası əsasında həyata keçirir. Regional Elmi Mərkəzlər elmin inkişafının prioritet istiqamətləri üzrə elmi və elmi innovasiya fəaliyyətinin əlaqələndirilməsini təmin edir və inzibati-funksional və ya funksional müstəqilliyə malik olan elmi tədqiqat müəssisələridir.*
***Açar sözlər:*** *İnformasiya təhlükəsizliyi, Əlyazmalar fondu, metodiki vəsait.*

**Giriş.** Azərbaycan Respulikasının regionlarında yaradılmış regional elmi mərkəzlər və onların informasiya cəmiyyətinin inkişafında önəmli yer tutması, yüksək ixtisaslı kadr hazırlığı, dünyanın bir çox ölkələrində elmi, təcrübi fəaliyyəti və.s haqqında geniş şəkildə məlumat vermişdik.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən 14 iyun 2016-cı ildə imzalanmış "Elm haqqında Azərbaycan Respublikasının Qanunu" elmi fəaliyyətin təşkili, idarə olunması və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmi fəaliyyət subyektlərinin hüquq və vəzifələrini, elmin maliyyələşdirilməsi mexanizmlərini müəyyən edir. Bu Qanun ölkənin siyasi, iqtisadi, sosial və mədəni inkişafının təmin edilməsi, hər bir vətəndaşın rifah halının və elmi səviyyəsinin yüksəldilməsi, yeni biliklərə yiyələnməsi və dünyanı dərk etmək kimi təbii, mənəvi ehtiyaclarının ödənilməsində elmin aparıcı rol oynamasını müəyyənləşdirir. Dövlət elmi informasiyanın toplanmasını, təhlilini, saxlanmasını və yayılmasnı həyata keçirən informasiya mərkəzlərinin, fondların və sistemlərin yaradılmasına, elmi fəaliyyət subyektlərinin elm, texnika və innovasiya sahəsində beynəlxalq informasiya fondları və mərkəzləri ilə əlaqəsinin qurulmasına, elmi nəticələrin çap olunmasına, nüfuzlu xarici elmi jurnallar, kitab və digər elmi-texniki materialların əldə edilməsinə şərait yaradır (3).

Regionların sosial-iqtisadi və mədəni inkişafına təkan verən elmi tədris və təhsil sisteminin müasir informasiya cəmiyyətinin tələbləri səviyyəsində inkişafını təmin etmək, regionların əmək bazarına uyğun olaraq, kadr hazırlığının və onların ixtisas səviyyələrinin yüksəldilməsi istiqamətində vəzifələrin həyata keçirilməsini təmin etməkdən ibarətdir (1). Regional Elmi Mərkəzlər elmi və elmi-texniki tədqiqatların təşkilini müxtəlif elm, təhsil, istehsal, xidmət, və digər sahələrin kooperasiyası əsasında həyata keçirir. Elmi fəaliyyət sahəsində əhəmiyyətli nailiyyətlər əldə edən, beynəlxalq səviyyədə tanınan, yüksəkixtisaslı elmi kadr potensialına, zəruri maddi-texniki bazaya və infrastruktura malik olan elmi müəssisə və təşkilatlara "Elmi Mərkəz" statusu verilə bilər (3).



Regional Elmi Mərkəzlər elmin inkişafının prioritet istiqamətləri üzrə elmi və elmi innovasiya fəaliyyətinin əlaqələndirilməsini təmin edir. Regional Elmi Mərkəzlər inzibati-funksional və ya funksional müstəqilliyə malik olan (ölkə, regional, akademik, elmi-innovasiya, elmi-istehsalat, elmi-metodik, elmi-təcrübi və digər) elmi tədqiqat müəssisələridir. Elmi müəssisə və təşkilatlar və ali təhsil müəssisələri elmi fəaliyyətin əlaqələndirilməsi, maddi, texniki, maliyyə və kadr resurslarından səmərəli istifadə olunması, vahid texnoloji prosesin (elmi tədqiqat nəticələrinin istehsalata tətbiqinə qədər) təmin edilməsi məqsədi ilə hüquqi şəxs statusunda elmi mərkəzlər yarada bilər.

**Əsas.** Qeyd etməliyik ki, bir-neçə iqtisadi regionda Regional Elmi Mərkəzlər yaradılmışdır. Əvvəlki məqalədə haqqında araşdırma apardığımız, qərb regionunda fəaliyyət göstərən Gəncə Regional Elmi Mərkəzi, Naxçıvan Muxtar Respublikasında Naxçıvan Regional Elmi Mərkəzi, Şimal-Qərb regionunda Şəki Regional Elmi Mərkəzi, Cənub regionunda Lənkəran Regional Elmi Mərkəzi. Regional Elmi Mərkəzlər yaradıldığı regionlarda elmi-fəaliyyəti əlaqələndirməklə, aparılan elmi-tədqiqat işlərinin koordinasiyası rolunu oynayır (2).

Naxçıvan Muxtar Respublikasında AMEA-nın Rəyasət Heyətinin 7 iyul 1972-ci il tarixli qərarı ilə Naxçıvan Regional Elm Mərkəzi yaradılmışdır. Regional Elmi Mərkəz – Naxçıvan Muxtar Respublikasının təbii xammal ehtiyatlarının kompleks şəkildə öyrənilməsi və səmərəli istifadə edilməsinin elmi əsaslarının işlənib hazırlanması, Muxtar Respublikanın sosial-iqtisadi tarixinin, arxeoloji, epiqrafik, etnoqrqfik və folklor abidələrinin araşdırılması və s. sahələrdə tədqiqat işlərini genişləndirmək məqsədi ilə təşkil edilmişdir. Mərkəzin yaradılması Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Hazırda Elmi Mərkəzdə 6 Elmi-Tədqiqat İnstitutu: Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, o cümlədən İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu, Batabat Astrofizika Rəsədxanası və Əlyazmalar Fondu yaradılmışdır (4).

1998-ci ildən Naxçıvan Dövlət Universitetində dörd ixtisas üzrə, 2006-cı ildən isə AMEA-nın Naxçıvan Regional Elmi Mərkəzində üç ixtisas üzrə Dissertasiya Şuraları yaradılmış və burada yüksək ixtisas təhsilli kadrların hazırlanması ilə yanaşı, fundamental elmlər sahəsində elmi tədqiqatlar aparılmışdır. 1995-ci ildən başlayaraq, bu günə qədər yüksək ixtisaslı elmi kadrların hazırlanması və onların ayrı-ayrı elm sahələrində əldə etdikləri nailliyyətlər də diqqətdən qaçmamalıdır. Naxçıvan Regional Elmi Mərkəzdə Naxçıvanın qədim tarixi, mədəniyyəti, ədəbiyyatı ilə bərabər, həm də onun təbiəti, təbii sərvətləri və s.bağlı olaraq elmi araşdırmalar aparılmışdır (4).

2015-ci ildə Naxçıvan Regional Elmi Mərkəzi ilə AMEA-nın Rəyasət Heyətinin birgə səyyar iclası zamanı Distant Tədris Mərkəzinin açılış mərasimi keçirilib. Regional elmi Mərkəzdə Distant təhsillə İnformatika fənninin tədrisi həyata keçirilir. AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu ilə Naxçıvan Regional elmi Mərkəzi arasında ilk dəfə onlayn şəkildə informatika elminin müxtəlif sahələri üzrə dərslər aparılmış və bir-çox elm xadimlərinin virtual şəkildə birgə fəaliyyəti təmin edilmişdir. Bu canlı bağlantıya Gəncə Regional Elmi Mərkəzi də qatılmışdır. Qeyd etmək lazımdır ki, hazırda, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun dəstəyi ilə, virtual körpü vasitəsi ilə ölkəmizdə vahid elm və təhsil müəssisələrinin yaradılması, respublikamızın müxtəlif iqtisadi regionlarında fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrinin və universitetlərin birgə əldə etdikləri elmi nailiyyətlərin istiqamətləndirilməsi ən mühüm prioritet məsələlərdən biri kimi nəzərdə tutulur. Eyni zamanda elmi-tədqiqat müəssisələrinin və universitetlərin beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi də təqdirəlayiq hal kimi diqqətdən qaçmamalıdır.

Azərbaycan elminin dünya elminə inteqrasiyasını təmin edən və təhsil şəbəkələri üzrə milli operator olan "AzScienceNet"də Wi-Fi, "Eduroam", "Cloud Computinq", monitorinq və informasiya təhlükəsizliyi, "Hostinq" distant təhsil və s. ilə yanaşı elektron kitabxana xidmətinin də göstərilməsi həyata keçirilir. Elektron kitabxana sistemlərinin təhlükəsizliyi bu xidmətin davamlı olması üçün, həm də virtual serverlərə və ya bulud platformasına əsaslanan sistemlərin tətbiqi mühüm əhəmiyyət daşıyır. Bulud texnologiyasının tətbiqi ilə elektron kitabxana sistemlərinin istifadəçi profillərinin analizləri aparılaraq, informasiya istifadəçilərinin maraq göstərdiyi elm sahələri üzrə kitabların və elmi məqalələrin, jurnalların dünya kitabxana bazalarından əldə edilərək toplanması həyata keçirilə bilər (5).

Elmi Mərkəzdə Naxçıvanın tarixi, etnoqrafiyası, arxeologiyası, ədəbi mühiti, folkloru, biomüxtəlifliyi, təbii ehtiyatlarının araşdırılmasında mühüm işlər yerinə yetirilmişdir. İki cildlik "Naxçıvan ensiklopediyası", "Naxçıvan abidələri ensiklopediyası", "Naxçıvan tarixi atlası", üç cildlik "Naxçıvan tarixi", "Naxçıvan teatrının salnaməsi", üç cildlik "Naxçıvanın folkloru antologiyası", iki cildlik Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitabı", "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", "Dədə Qorqud yurdu-Naxçıvan", tarixi-coğrafi və etniqrafik atlas (üç dildə) ,"Naxçıvan coğrafiyası" (iki cilddə) və s. kimi fundamental nəşrlər işıq üzü görmüşdür. Elmi Mərkəzin fəaliyyəti ərzində alim və mütəxəssislərin 228 monoqrafiyası, 210 kitabı, 28 metodik vəsaiti, 6 dərs vəsaiti, 8761 elmi məqaləsi, 219 tezisi, 22 atlas və xəritəsi çap olunmuşdur. Elmi Mərkəzin əməkdaşları 5 tövsiyə, 50 buklet hazırlamış, 28 patent almışlar. Eyni zamanda 24 monoqrafiya, 19 kitab, 1862 məqalə, 71 tezis xaricdə çap edilmişdir. Elmi Mərkəzin əməkdaşları 4-ü beynəlxalq olmaqla, 23 qrant layihəsinin qalibi olmuşlar. 2005-ci ildə Elmi Mərkəzin nəşriyyatı fəaliyyətə başlamış və ilk olaraq Gəmiqaya ilə bağlı xüsusi nömrə çapdan çıxmışdır. Ötən dövr ərzində Elmi Mərkəzin iki seriyada nəşr olunan "Elmi əsərlər"(əvvəlcə "Xəbərlər" adı ilə) jurnalının 60 (bunlardan 28-i humanitar, 29-u dəqiq elmlər seriyası üzrə, 3-ü isə xüsusi nömrə kimi nəşr olunmuşdur). "Axtarışlar" jurnalının isə 36 nömrəsi işıq üzü görmüşdür. Regional Mərkəzdə Əlyazmalar Fondunda 200-ə qədər türkdilli əlyazma kitabları saxlanılır. Əlyazma kitabları çap olunduğu dövrə görə qruplaşdırılmış və hər qrupa daxil olan kitablar haqqında ətraflı məlumat verilmişdir. Əlyazmalar Fondunda türkdilli qədim əlyazma kitabları ilə yanaşı, XIX əsrin sonlarından etibarən çapdan çıxmış kitablar da mühafizə olunur. Onlar elm və mədəniyyətin, tarix və ədəbiyyatın müxtəlif sahələrinə aiddir. Fondda qorunan ilk türkdilli kitab 1857-ci ildə Əsgər ibn-Hüseyn bəy Ordubadinin sifarişi ilə Məşədi Hacıağa Təbrizi tərəfindən üzü köçürülən M.Füzulinin "Leyli və Məcnun" poemasıdır. Azərbaycan dilində olan həmin əlyazmaya 22 rəngli müniatür daxil edilmişdir. Belə kitablar Azərbaycan dilinin inkişaf yolunu izləməyə də imkan verir. Bu miniatürlər sübut edir ki, azərbaycanlı rəssamlar Yaxın və Orta Şərq incəsənətinə özünəməxsus töhvələr vermişlər. Fondda saxlanan 1920-1940-cı illər üzrə Azərbaycan dilində çap olunmuş kitabları belə qruplaşdırmaq olar: 1) Klassiklərin və XVIII-XIX əsrlərdə yaşayıb-yaradan azərbaycanlı müəlliflərin kitabları; 2) Müasir Azərbaycan müəlliflərinin kitabları; 3)Xarici müəlliflərin Azərbaycan dilinə tərcümə olunan kitabları; 4) Elmi, fəlsəfi və ictimai-siyasi məzmunlu kitablar; 5) Dərsliklər;

Klassiklərin xüsusi ilə XVIII-XIX əsrlərdə yaşayan azərbaycanlı müəlliflərin əsərlərinin əksəriyyəti 1925-1928-ci illərdə Salman Mümtazın tərtibi ilə "Azərbaycan ədəbiyyatı" seriyasına aid olan kitablardır. Bu kitabların Azərbaycan oxucusunun bədii zövqünün formalaşmasında, dünya mədəniyyəti ilə tanış olmasında, həmçinin Azərbaycanda tərçümə sənətinin və məktəb tarixinin öyrənilməsində böyük əhəmiyyəti vardır (6).

Naxçıvan Regional Elmi Mərkəzi Rusiya Federasiyasının Novosibirsk bölməsi, Polşa Akademiyasının Krakov Bölməsi, Fransa Respublikası Milli Elmi Aradırmalar Mərkəzinin Arxeologiya Laboratoriyası, İran İslam Respublikasının Marağa Astronomiya və Astrofizika Elmi-Tədqiqat İnstitutu, Türkiyə Cumhuriyyətinin Dil Qurumu, İğdır Universiteti, Şimali Makedoniya Respublikasının "Vison" Universiteti arasında əməkdaşlıq protokolu imzalamışdır. Elmi Mərkəz Qazaxıstandakı Beynəlxalq Türk Akademiyası, Türkiyə Cumhuriyyətinin İstanbul, Ərzurum, Konya, Kars, İğdır Universitetləri, İran İslam Respublikasının Tehran Universiteti, Təbriz Dövlət Universiteti, Təbriz Milli Kitabxanası, Krım Astrofizika Rəsədxanası və Rusiya Federasiyasının Moskva Dövlət, Tomsk Universitetləri, Yer Maqnetizmi, İonosferi və Radio Dalğalarının yayılması İnstitutu, Ümumdünya Təbiət Mühafizə Fondu, ABŞ-ın Pensilvaniya, Corciya Universitetləri, Avstraliyanın Monas Universiteti və s. ümumilikdə, 30-a yaxın elm və təhsil mərkəzləri ilə səmərəli əməkdaşlıq edir. Regional Elmi Mərkəzin bir-neçə illik elmi hesabatlarına nəzər salaq: Elmi

Mərkəzdə 2018-ci ildə 23 monoqrafiya, 15 kitab, 4 kitabça, 3 metodik vəsait, 555 elmi məqalə, 213 konfrans materialı, 7 tezis olmaqla 820 elmi əsər nəşr edilib. Əsərlərdən 2 monoqrafiya, 87 elmi məqalə, 75 konfrans materialı və 3 tezis olmaqla, 167-i xarici elmi jurnallarda nəşr olunub. Elmi məqalələrin 48-i impakt faktorlu (11-i Tomson Reuters) jurnallarda çap edilib. Bu isə 2017-ci illə müqayisədə 51 əsər çox deməkdir. Məqalələrin 99-u xaricdə olmaqla, 498-i beynəlxalq kodlu nüfuzlu elmi jurnallarda çapdan çıxmışdır. Hesabat dövründə Elmi Mərkəzdə "Xəbərlər" jurnalının, "Axtarışlar" jurnalının hər birinin dörd nömrəsi çapdan çıxıb. Bu nömrələrdə bölmə əməkdaşlarının 228 məqaləsi işıq üzü görüb. Elmi Mərkəzin Rəyasət Heyətinin iclaslarında 18 kitab və monoqrafiya müzakirə olunaraq nəşrə tövsiyyə edilib (7).

Naxçıvan Regional Elmi Mərkəzdə Tarix və Etnoqrafiya İnstitutunun əməkdaşları, 2021-ci il ərzində 8 iş üzrə 15 mərhələdə tədqiqat apararaq, 8 monoqrafiya, 3 kitab, 1 kitabça, 102 elmi məqalə və 43 konfrans materialı nəşr etdirmiş və 2 xəritə tərtib etmişlər. Elmi əsərlərdən 3 monoqrafiya, 22 məqalə, 22 konfrans materialı xaricdə dərc edilib. 11 elmi məqalə impakt faktorlu jurnallarda çap edilib. Alim və mütəxəssislərin əsərlərinə il ərzində 481 dəfə istinad qeydə alınıb. "Qars müqaviləsi və Naxçıvan" mövzusunda elmi araşdırmalar aparılıb və Qars müqaviləsinin 100 illiyi ilə əlaqədar məqalələr hazırlanaraq "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalında nəşr edilib. İnstitun əməkdaşları həmçinin, "Şərq qapısı" qəzetinin 100 illiyi ilə əlaqədar hazırlanan kitab üçün Naxçıvan tarixi, abidələri, epiqrafikası və etnoqrafiyasına dair müxtəlif dövrlərə aid məqalələr hazırlamışlar. Hesabat dövründə institut əməkdaşları 17 beynəlxalq tədbirdə, 9 respublika konfransında, 18 muxtar respublika tədbirində, kitab müzakirələrində, 4 monoqrafiya təqdimatında, Elmi Mərkəzdə keçirilən 12 konfrans və tədbirdə çıxış etmişlər. Onların müxtəlif qəzet və informasiya portallarında 63 məqaləsi dərc edilib.

Elmi Mərkəzin İncəsənət Dil və Ədəbiyyat İnstitutunda cari ildə 1 problem üzrə, 1 mövzunu əhatə edən 7 iş 18 mərhələdə yerinə yetirilib. 2021-ci ildə institut əməkdaşlarının 2 monoqrafiyası, 144 elmi məqaləsi, 39 konfrans materialı və tezis olmaqla, ümumilikdə 188 elmi əsəri nəşr edilmişdir. Əsərlərdən 14-ü elmi məqalə, 9-u konfrans materialı və tezislər xaricdə çapdan çıxmış, 2 məqalə impakt faktorlu jurnallarda nəşr edilmişdir. Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş "Aşıq Ələsgər və Naxçıvan" mövzusunda elmi araşdırmalar aparılmış, elmi və publisistik məqalələr çap olunuşdur. Naxçıvan Regional Elmi Mərkəzin "Elmi əsərlər"adlı jurnalının xüsusi nömrəsi Aşıq Ələsgərin 200 illik yubileyinə həsr edilmişdir. Hesabat dövründə institut əməkdaşları 15 beynəlxalq tədbirdə, 3 respublika tədbirində, 13 muxtar respublika tədbirində, 3 kitabın müzakirəsində, 3 kitab və monoqrafiyanın təqdimatında, bölmədə keçirilən 13 konfransda məruzə etmişlər (6).

Naxçıvan Regional Elmi Mərkəzin 2022-ci ilin ilk yarımilliyində 6 elmi istiqamətdə, 6 problemi əhatə edən 7 mövzu üzrə 36 iş 91 mərhələdə yerinə yetirilib. Hesabat dövründə Elmi Mərkəzin əməkdaşlarının 8 monoqrafiyası, 5



kitabı, 2 metodik vəsaiti, 223 elmi məqaləsi, 121 konfrans materialı və 1 tezisi olmaqla, 360 elmi əsəri çap olunmuşdur. Eyni zamanda 1 xəritə və 1 buklet tərtib edilib. Əsərlərdən 2 monoqrafiya, 41 məqalə və 62 konfrans materialı xaricdə çap olunub. Elmi məqalələrin 44-ü xaricdə olmaqla, 194-ü beynəlxalq kodlu nüfuzlu elmi jurnallarda çapdan çıxmışdır. 34 elmi məqalə impakt faktorlu jurnalda nəşr olunub ki, bunlardan 9-u "Clarivate Analytics" indekslidir. Ötən 6 ay ərzində 216 istinad qeydə alınıb, mətbuatda 219 qəzet məqaləsi dərc olunub. Elmi Mərkəzin fəaliyyəti ilə bağlı qarşıya qoyulan vəzifələrin icrası məqsədi ilə 7 rayonun tarixi, "Naxçıvan tarixinin səhifələrindən", "Naxçıvan arxeologiyası", " Naxçıvan uşaq folkloru" əsərləri çapa təqdim edilmişdir. İki cildlik "Naxçıvan etnoqrafiyası" üzərində işlər davam etdirilir. "Naxçıvanın dövlətçilik tarixi", "Naxçıvan əlyazmalar xəzinəsi", "Naxçıvan ədəbi mühiti" və "Naxçıvanın xalq deyimləri" kitabları çapa hazırlanıb. "Elmi əsərlər" jurnalının Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyinə həsr olunan xüsusi nömrəsi çap olunub. Əhməd Cavadın 130 illiyi ilə bağlı xüsusi nömrə isə çapa hazırlanır. 9 iyul 2021-ci ildə keçirilmiş "Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı" Beynəlxalq Konfransının materialları çap olunmaq üçün təqdim edilib. Cari ilin may ayında Türk Tarix Qurumu ilə əməkdaşlığa dair müqavilə imzalanıb. Bölmə əməkdaşları müxtəlif ölkələrdə keçirilən beynəlxalq emi tədbirlərdə iştirak ediblər. Elmi nailiyyətlərin təhsildə tətbiqi məqsədi ilə 8 monoqrafiya və kitab dərs vəsaiti kimi tövsiyə olunub. Yarım il ərzində Elmi Mərkəzin əməkdaşları muxtar respublika məktəbliləri üçün nümunəvi dərslər tədris edib, 3 əməkdaş interaktiv dərs aparmış, alim və ziyalıların məktəblilərlə görüşləri təşkil edilmişdir (9).

Lənkəran Regional Elmi Mərkəzi AMEA-nın Rəyasət Heyətinin qərarı ilə 21 sentyabr 2005-ci ildə yaradılmışdır. Regional Elmi Mərkəzin yaradılmasında əsas məqsəd, cənub-şərq regionunun elmi-texniki potensialını inkişaf etdirmək, elmi nailliyyətləri təbliğ etmək, sosial-iqtisadi inkişafa xidmət edən yeni biliklərin əldə olunmasına yönəlmiş fundamental və innovasiya xarakterli elmi-tədqiqat işlərinin təşkili və aparılması regionun tarixini, mədəniyyətini, adət və ənənələrini öyrənmək, onun iqtisadiyyatı ilə bağlı problemlərin həlli ilə məşğul olmaq, elmi kadrlar hazırlamaq və s. işlərdən ibarətdir. Lənkəran Regional Elmi Mərkəzin gələcək fəaliyyət proqramında aqrar və digər sahələrdən olan Lənkəran-Astara bölgəsində potensial imkanların araşdırılaması diqqət mərkəzindədir. Cənub regionunda arxeoloji tədqiqatların, region abidələrinin müasir elmi üsullarla xəritələndirilməsinin, həmçinin region abidələrinin monitorinqinin həyata keçirilməsi məqsədi ilə Lənkəran Regional Elmi Mərkəzdə "Arxeologiya şöbəsi" yaradılmışdır. Elmi Mərkəzin nəzdində AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu ilə birgə arxeoloji fondun və açıq səma altında etnoqrafik muzeyin yaradılması istiqamətində işlərin aparılması nəzərdə tutulmuşdur. Elmi Mərkəz elmi-tədqiqat işlərini inkişaf etdirərək, informasiya cəmiyyətinin tələbləri səviyyəsində həyata keçirirlər (2).

Lənkəran Regional Elmi Mərkəzin "Çay və subtropik bitkilər" şöbəsi regionda çay, sitrus və subtropik bitkilərin mövcud sort və formalarının toplanması, bərpa edilməsi və müasir seleksiya baxımından qiymətləndirilməsi üzrə fəaliyyət göstərir. Elmi Mərkəzin "Folklor, etnoqrafiya və arxeologiya şöbəsi" ölkəmizin cənub-şərq regionunun folklorunun və mifoloji mətnlərinin toplanması, sənədləşdirilməsi, folklor mətnlərinin qaynaqlarının üzə çıxarılması, toplanan folklor nümunələrinin vahid Azərbaycan folklorunda yeri, nəzəri problemlərinin araşdırılması, Azərbaycan folklorunun etnik, milli və universal xüsusiyyətlərinin və əlaqələrinin tətbiqi, elmi təsnifi, kataloqlaşdırılması və nəşr edilməsi, arxeoloji abidələrin aşkarlanması, onların xəritələrinin tərtib edilməsi və muzeyinin yaradılmasını həyata keçirir (8). Lənkəran Regional Elmi Mərkəzin son bir neçə ildə elmi fəaliyyətinə nəzər salaq: Regional Elmi Mərkəzdə 12 fevral 2018-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"na əsasən çay və sitrus bitkiçiliyi sahəsində elmi-tədqiqatların daha geniş sahədə, müasir tələblər səviyyəsində öyrənmək, qorumaq və zənginləşdirmək kimi mühüm məsələləri qarşıya məqsəd qoymuşdur. Elmi Mərkəzin əməkdaşları "Biomüxtəliflik proqramı" çərçivəsində Almaniyanın Bavariya şəhərində praktiki treninqlərdə iştirak etmişlər. İranın bir sıra elmi müəssisələri, Əkinçilik Nazirliyinin Gilan vilayətinin Cihad Kənd Təsərrüfatı və Əkinçilik Tədqiqat Mərkəzi, Çay Tədqiqat İnstitutu ilə birgə əməkdaşlığa dair müzakirələr aparmışlar. Hesabat ilində Elmi Mərkəzin əməkdaşlarının 10 elmi əsəri, o cümlədən bir kitab, biri xaricdə olmaqla səkkiz məqalə, bir tezis dərc edilib. Alimlərin elmi əsərlərinə 20 dəfə istinad verilib. Elmi Mərkəzdə 2019-cu ildə mərkəz əməkdşlarının yerli və xarici jurnallarda 7 məqaləsi və 1 tezisi nəşr edilmişdir (10).

Elmi Mərkəzin əməkdaşları 2021-ci ildə iki problem, altı mövzu (üç mövzu fundamental və üç mövzu tətbiqi) əsasında araşdırmalar aparıb, 4 mövzu və 4 iş isə başa çatdırılıb. 2021-ci ildə Elmi Mərkəzin əməkdaşları 4 kitab, 25 məqalə (17-si xaricdə indekslənən jurnallarda), 5 tezis nəşr etdirmişlər (11). Elmi Mərkəzdə 2021-ci ildə aqrar elmlər doktoru, professor F.Quliyev, fəlsəfə doktorları X.Babayev və N.Mirzəyevin həmmüəllifliyi ilə "Çay bitkisinin qidalanması və məhsuldarlığı" mövzusunda monoqrafiyaları çap olunub. 09.06.2021-ci ildə Lənkəran Regional Elmi Mərkəzdə bölgə müəssisələrinin Koordinasiya şurası yaradılıb. Koordinaiya Şurasının yaradılmasında məqsəd, elmi tədqiqat müəssisələrində aparılan elmi tədqiqatların vahid mərkəzdən idarə olunması modelini yaratmaqdır. 25.05.2021-ci ildə "Elm və Həyat" jurnalında elmi mərkəzin əməkdaşlarının "Azərbaycanda çayçılığın elmi əsaslar üzərində inkişafı: nailliyətlər və perspektivlər" mövzusunda məqaləsi nəşr edilmişdir.

17.05.2021-ci ildə Qazaxıstanın Nursultan şəhərində "Elm və təhsil dünyada: XXI əsrin çağırışları" mövzusunda VII Beynəlxalq Elmi-Praktik Konfrans keçirilib. Konfransda elmi mərkəzin əməkdaşlarının "Пенициллез или зеленая плесень цитрусовых культур при хранении в условях южной



Азербайджана" məqaləsi nəşr olunub. Ümumiyyətlə, Lənkəran Regional Elmi Mərkəzdə 2021-ci ildə 4 kitab, 25 məqalə və 5 tezis nəşr edilmişdir.

AMEA-nın Rəyasət Heyətinin 14 aprel 1972-ci il tarixli qərarı ilə Akademiyanın Fizika İnstitutunun nəzdində Şəki Regional Elmi Bazası yaradılmışdır. Bu müəssisənin yaradılmasında əsas məqsəd, Şəki-Zaqatala iqtisadi regionunun sənaye və kənd təsərrüfatını daha da inkişaf etdirmək, elmin qabaqcıl nailiyyətlərini istehsalata tətbiq etməklə səmərəliliyi artırmaqdan ibarətdir. Sonralar Elmi bazada "Geologiya", "Genefond", "Biokimya", "Biofizika" qrupları yaradılmışdır.

AMEA-nın Rəyasət Heyətinin 6 aprel 1995-ci il qərarı ilə Şəki-Zona Elmi Bazasına Şəki Regional Elmi Mərkzəi statusu verilmişdir. Həmin qərarla Şəki Elmi Mərkəzindəki beş tədqiqat qrupu laboratoriyaya çevrilmişdir. Əlavə olaraq, iki yeni-"Sellərin öyrənilməs"i, "Folklorşünüslıq-el sənətləri laboratoriya"ları yaradıldı və onların sayı 7-yə çatdı. 2014-cü ildə AMEA-nın yeni Nizamnaməsinə uyğun olaraq, struktur dəyişikliyi həyata keçirilmiş və laboratoriyalar şöbə adlandırılmışdır. Şöbələr fəaliyyət istiqamətlərinə görə yeni adlarla – Landşaftşünaslıq, Ekoloji coğrafiya, Bitkilərin biokimyası, Molekulyar biofizika, Tut ipəkqurdunun seleksiyası, Bitkilərin genofondu və biomüxtəliflik, Folklorşünaslıq və el sənətləri, Tarix və etnoqrafiya şöbələri kimi təsnif edilmişdir. Şəki Regional Elmi Mərkəzi bu günə qədər 18 müəlliflik şəhadətnaməsi və 2 patent almışdır (1).

Şəki Regional Elmi Mərkəzi beynəlxalq əməkdaşlıq sahəsində elmi fəaliyyət də aparır: Bolqarıstan Plovdiv Aqrar Universiteti, Bolqarıstan Vratsa İpəkçilik və Əkinçilik üzrə Təcrübə stansiyası, Tacikstan Kənd Təsərrüfütı Akademiyası Xüdiənd İpəkçilik Təcrübə stansiyası, Özbəkistan Daşkənd Elmi-tədqiqat İpəkçilik İnstitutu, Gürcüstan Kənd Təsərrüfatı Akademiyası, Hindistan Maysori İpəkçilik üzrə Təlim və Tədris Mərkəzi; Regional Elmi Mərkəz ölkəmizin birçox institutları ilə də əməkdaşlıq edir: Genetik Ehtiyatlar İnstitu, Coğrafiya İnstitu, Zoologiya İnstitu, Arxeologiya və Etnoqrafiya İnstitu, Gəncə Elmi-Tədqiqat Heyvandarlıq İnstitu, AMEA-nın Naxçıvan Regional Elmi Mərkəzi;

Elmi Mərkəzin son bir-neçə il ərzində elmi fəaliyətinə nəzər salaq: 2015-2018-ci illər arasında Elmi Mərkəzin əməkdaşlarının 200 elmi məqaləsi və tezisi elmi jurnallarda, o cümlədən 32-i xaricdə olmqla çap olunmuşdur. 2018-ci ildə Elmi Mərkəzin əməkdaşları Türkiyədə 5, Ukraynada 11 Beynəlxalq Konfrasda iştirak etmişlər. Konfranslarda elmi əməkdaşların 23 tezisi nəşr edilmişdir. 02.12.2018-ci il tarixindən 31.12.2018-ci il tarixinə qədər elmi mərkəzin bir nəfər əməkdaşı Hindistan Maysori şəhərindəki İpəkçilik üzrə Mərkəzi Elmi-Tədqiqat və Tədris İnstitutuna treninqə göndərilmişdir. 2019-cu ilin mart ayında həmin İnstitut ilə Elmi Mərkəz arasında elmi əməkdaşlıq protokolunun imzalanacağına dair ilkin razılıq əldə edilmişdir. Elmi Mərkəz regionun 6 rayonunda tarixi və etnoqrafik irsin tədqiqini aparmış, XVIII-XIX əsrə aid 29 növ naxış və ornamentlər aşkar etmiş, epitafiyalar üzərindəki simvol və işarələr tədqiq edilmişdir.

2019-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının əməkdaşlarının da iştirak etdiyi "Elm Günü"nə həsr olunmuş Elmi Praktik Konfrans, "Nəsimi-650" yubileyi münasibəti ilə Zaqatala rayon İcra hakimiyyəti, Regional Elmi Mərkəz və ADPU-nin əməkdaşlarının iştirakı ilə Elmi-Praktik Konfrans keçirilmişdir. Elmi Mərkəz 2019-cu ildə ADPU-nin Şəki filialında tədris olunan fənlərə dair bir tədris proqramı və bir dərs vəsaiti çap etmişdir (12).

Elmi Mərkəzin əməkdaşları Türkiyə, Hindistan, Gürcüstan və Yaponiyada keçirilən 5 Beynəlxalq Konfransda iştirak etmiş, 4-ü xaricdə olmaqla 26 elmi məqalə dərc edilmiş, xarici və yerli Beynəlxalq Konfranslarda 33 məqalə və tezis nəşr edilmişdir. 2020-ci ildə 22 bayatı,1 rəvayət,1 nağıl,15 atalar sözü, 3 mahnı əldə olunaraq yazıya alınmışdır. Balakən rayonunda indiyə qədər tədqiq olunmayan orta əsrlərə aid 10-a qədər alban abidəsinin planı çəkilmiş, həmin abidələrin katoloqunun hazırlanmasına başlanmışdır. Elmi Mərkəzdə "Folklor və El sənətləri" şöbəsində "Göynük mahalı: siyasi, coğrafi, mədəni, tarixi və folkloru" 352 səhifəlik monoqrafiya çap edilmişdir. "Genofond və biomüxtəliflik" şöbəsi tərəfindən "Azərbaycanın şimal-qərb bölgəsinin müalicəvi bitkilərinin bioekoloji xüsusiyyətləri və sənayedə istifadəsi" mövzusunda 260 səhifəlik monoqrafiya nəşr edilmişdir. Regionun folklor nümunələrinin növ və janr xüsusiyyətləri araşdırılaraq, əldə olunan materiallar arasında kiçik və lirik növün janrlarının üstünlük təşkil etdiyi tədqiq edilmişdir. Yazılı ədəbi irsin tədqiqi göstərir ki, bu nümunələrdə toponimik vahidlər və dialekt xüsusiyyətləri yer almaqla, onların məhz bu bölgəyə aid olmasını sübut edir.

2020-ci ildə Elmi Mərkəzin əməkdaşları 3 kitab nəşr etdirmiş, 4 kitaba tərtibçi və ön söz müəllifi olmuşlar. 13 konfrans materialı və xaricdə indeksli jurnallarda 4 məqalə, respublika əhəmiyyətli jurnallarda 8 elmi məqalə çap edilmişdir. AMEA-nın Mərkəzi Elmi Kitabxanasına Elmi Mərkəz tərəfindən regionun yazıçı və şairlərinin 232 kitabı, o cümlədən monoqrafiya və digər çap məhsulları ekspozisiyada yerləşdirilmişdir. Elmi Mərkəzin əməkdaşlarının 2021-ci ildə 34 konfrans materialı, 38 məqalə (13-ü xarici, o cümlədən 6-sı impakt faktorlu jurnallarda) və 6 tezisi nəşr olunub.

Elmi Mərkəz 2022-ci il 4 iyun tarixində Azərbaycanın Xalq Şairi Bəxtiyar Vahabzadənin yaradıcılığına həsr olunmuş "IV Beynəlxalq Bəxtiyar Vahabzadə Türk Dünyası, Tarix, Mədəniyyət və Ədəbiyyat" adlı Beynəlxalq Elmi Konfrans keçirmişdir. Elmi Mərkəzdə "Azərbaycan Xalq Cumhuriyyəti, şərəf və ləyaqət tariximizdir", "Dayanıqlı inkişaf. Tədqiqatlar, İnnovasiyalar" və s. mövzularda da Beynəlxalq Elmi Konfranslar təşkil etmişlər (12).

**Nəticə:** Beləliklə, Azərbaycan Respublikasının regionlarında yaradılmış regional Elmi Mərkəzlər sosial-iqtisadi, mədəni inkişafı təmin etməklə, regionlarda elmi fəaliyyətin inkişafı üçün zəmin yaratmışdır. Regional Elmi Mərkəzlərin informasiya təminatının həyata keçirilməsinin nəticəsi olaraq, aparılan tədqiqatlar, azərbaycanşünaslıq ideyasının, Azərbaycan xalqının milli, mənəvi dəyərlərinin qorunması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi, Azərbaycan tarixinin, mədəniyyətinin, maddi, mənəvi irsin və Azərbaycan xalqının etnogenezinin öyrənilməsinə şərait yaradır. Elmi tədqiqat fəaliyyətinin nəticəsi olaraq, informasiyanın yaranması, toplanması, saxlanılmasını həyata keçirən informasiya mərkəzlərinin, fondların və sistemlərin yaradılması, beynəlxalq informasiya fondları və mərkəzləri ilə elmi mübadilələrin aparılması, elmi əsərlərin çap olunmasına, nüfuzlu xarici jurnallarda, kitab və digər elmi-texniki materialların əldə edilməsinə təminat verir.



**Ədəbiyyat:**

1. Bayramova İ.Z. Gəncə Regional Elmi Mərkəzinin informasiya təminatının müasir vəziyyəti. Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. №2(51). 2022. – Bakı: Mütərcim, 2022. – 135 s.
2. Bayramova İ.Z. Azərbaycan Respublikasında regional elmi mərkəzlərin elmi fəaliyyəti. //Ümummilli Lider H.Əliyevin anadan olmasının 98-ci il dönümünə həsr olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya fəaliyyətinin inkişaf meylləri" mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı, 7 may 2021-ci il. – Bakı: BDU, 2021. – 145 s.
3. Bayramova İ.Z Təhsildə müasir informasiya və kommunikasiya texnogiyaları. Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. №2(47).-2020. – Bakı: Mütərcim, 2020. – 120 s.

**İnternet resurslar:**

4. e-qanun.az/framework
5. az.vikipedia.orq /üiki /AMEA_Naxçihvan _Regional _Elmi_ Merkezi
6. palitranews.az/print.php.
7. ndu.edu.az/Wp-content
8. azerag.az/xeber/AMEA_Naxchivan_Bolmesi
9. irem.az/az/content/
10. science.qov.az/az/ news
11. azertag.az/xeber/AMEA_nın Lenkeran_Regional_Elmi_Merkezi.)
12. təhsil-press.az/index.php
13. azadu.az/az/news

**И.Байрамова**

**Региональные Научные Центры Азербайджанской Республики**

***Резюме:*** *Региональные Научные Центры, действующие в регионах Азербайджанской Республики, организуют научные и научно-технические исследования на основе сотрудничества различных областей науки, образования, производства, обслуживания и других сфер. Региональные Научные Центры обеспечивают координацию научной и научно-инновационной деятельности по приоритетным направлениям развития науки и являются научно-исследовательскими учреждениями, обладающими административно-функциональной или функциональной самостоятельностью.*

***Ключевые слова:*** *Інформационной безопасности, Фонд рукописей, тетодические средства*

**I.Bayramova**

**In the regions of the Republic of Azerbaijan operating Regional Scientific Centers**

***Summary:*** *Regional Scientific Centers operating in the regions of the Republic of Azerbaijan organize scientific and scientific-technical research based on the cooperation of various science, education, production, service, and other fields. Regional Scientific Centers ensure the coordination of scientific and scientific innovation activities in the priority areas of scientific development and are scientific research institutions with administrative-functional or functional independence.*

***Key words:*** *Information security, Manuscripts fund, methodical means*

***Rəyçi:*** *t.ü.f.d., dos.* ***S.Sadıqova***